## *QARDAŞLIQ DUYĞULARI*

# *Azərbaycandan salam*

**Xəlil Rza Ulutürk**
Xalq şairi

## Özbək dili

***(Görkəmli özbək alimi İbrahim Haqqula)***

Hansı gündə enib gəldin səmalardan, özbək dili?
Qanad aldın ən müqəddəs sədalardan, özbək dili?

Araxçınlı gəlinlərin dinlədinmi laylasını,
Sən yaradın o ilahi nidalardan, özbək dili!

Eraların alt qatında lay-lay qızıl külçəmizsən,
Söylə, nə cür çıxdın üzə?

Himalayla, Tyan-Şanla yaşıd olan ey möcüzə,
Söylə, nə cür çıxdın üzə?

Hansı ayda, hansı gündə silkələndi bizim cahan?
Elbrus, Alp, Pamir dağı ərzi yarıb çıxdı haçan?

Mən düşündüm, açar tapdım fikirlərin ilgəyinə:
Özbək dili qaldırmışdır bu dağları öz çiyninə!

Addımladım gah yaxında, gah uzaqda:
Kayrakqumda, Qayçıqayda, Qolbulaqda...

Torpaqdakı fil sümüyü izin sənin, özbək dili!
Kəhkəşanlar ərzə baxan gözün sənin, özbək dili!

Qalınlığı neçə arşın buzlaqları əritmisən,
Qılıncları susdurmusan, nizələri kiritmisən.

Təndirlərin şirmayınan əppəyinin istisini
Qanımıza yeritmisən, özbək dili!

Addımladın Zərəfşanda, Yeddi suyun arxasında.
Kaşqadərya, Çiv, Sarısuv yaxasında

Bir vaxt qızıl qayaları aparardı dalğasında,
Neçin belə azalıb su?

## Özbəkistan

Xeyir! Məni gətirmədi nə təyyarə, nə də qatar.
Sənin adın çəkiləndə gördüm bir cüt qanadım var.
Zirvələri al günəşə dirsəklənən doğma diyar!
Yaşın – milyard, ruhun – bahar.
Vətənimin ortasında tər gülüstan – Özbəkistan.

Öz balanam, ana yurdun o başında doğulmuşam.
Dənizlərdən dənizlərə qanad gərən qızıl quşam.
İldırımı ötüb keçən sürətinə vurulmuşam.
Torpağına Ceyhun kimi, Ceyhun kimi sarılmışam.

Daş ver mənə saray tikim, sən memarsan, mən də ustan,
Yüz memara, min ustaya ilham verən Özbəkistan!

Damarlarda od axını, Kür, ya Araz kimi axın.
Bəlkə qardaş deyim sənə? Sən qardaşdan daha yaxın!
Bir rəmziyik cüt sinədə bir can kimi yaşamağın.
Doğmalığı qanımızda atəş kimi daşımağın!
“Dost” sözünə sığışmırıq, nə cür deyim təkcə dostam,
Məhəbbətin, sədaqətin tunc qalası – Özbəkistan!

Nəvaiyə oxşar mənəm, Nizamiyə bənzəyən sən.
Kəmaləddin Behzad olub “Xəmsə”ni ilk bənzəyən sən.
Cəlaləddin qılıncına, Babir qələminə əhsən.
Döşlərindən yüz dahiyə, min igidə süd vermisən,
Söz gücünə, saz gücünə qurtarmısan bizi yasdan,
Ozan dilli, qopuz telli bayramımız Özbəkistan!

Ləngər vurur Amu-dərya, qayaları qıra-qıra.
Yaqut, gövhər imarətlər qucağında sıra-sıra.
Registanda şəfəqinlə işıqlanır iki era.
Qalxıb göyə... yerdə deyil nə Səmərqənd, nə Buxara.
Hər sarayın bir möcüzə, hər divarın qızıl dastan.
Dastanlara, nağıllara sığışmayan Özbəkistan1

Kaşı – növ-növ, naxış – rəng-rəng, buta-alov, bəzək-mərcan.
Raketmidi o minarə, göy gümbəzmi o asiman?
Cəhənnəmdə yaşasa da cənnət çıxıb fırçasından,
Yüz dürdanə yaratmışdır bir məzarə sığan insan.
Ürək-dərya. Ləpə dodaq pıçıldayır asta-asta:
Səni tamam qavramağa çatmır ömür, Özbəkistan!

Turküstanın çələngidir Fərabilər, Birunilər.
Uluğbəyin zəkasıyla işıqlandı göydə ülkər.
Qızılqumda qızıla dön, Fərqanədə gül aç, göyər.
İnadını gürzə döndər, qanadını cürətlə gər!
Bağlarından calaq alsın Yer üzündə hər bağ, bostan.

Səadətim, – Özbəkistan!
Alqış sənə, salam sənə bizim Odlar diyarından!
Bu diyarın Araz adlı, Kür adlı şah damarından.
Buyur, sənə sovqat verim Göyçayımın xas narından,
Yandım, içim Zərəfşanın qoy dirilik sularından.

Doymur könül bu günəşdən, bu bahardan, bu tər yazdan.
Ağzımızda havası da şərbətləşən Özbəkistan!

Görən gözüm Azərbaycan, vuran nəbzim – özbək dili.
Təkcə iki yurdun deyil sizin, bizim özbək dili.
Misra-misra qızıl çəkən daş-tərəzim özbək dili.
Şeyxzadə ilhamında od nəfəsim özbək dili!
Ucalırsan, güc alırsan on dörd milyon oğul-qızdan,
Öz bəxtinin öz memarı, özbək dili Özbəkistan!